YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 yanvar
2025-ci il,
çərşənbə
№ 007 (6835)
Qiymәti
60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Qlobal gündəmi müəyyənləşdirmək üçün yeni imkanlar...

# Əbu-Dabi Dayanıqlılıq Həftəsi

Bax səh. 2

# Azərbaycanın yaratdığı reallıqlardan qorxanlar...

Bax səh. 3

## "Rəqəmsal ekologiya" ...

Prezident İlham Əliyevin yanvarın 10-da imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə "Rəqəmsal ekologiya" informasiya sistemi (REİS) yaradılıb.

"Rəqəmsal ekologiya" informasiya sistemi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) fəaliyyət istiqamətləri üzrə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə nazirliyin fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin əlçatanlığını təmin edəcək. REİS-in sahibi funksiyalarını nazirlik, operatoru funksiyalarını isə nazirliyin tabeliyindəki "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxs həyata keçirəcək.

REİS "Hökumət buludu"na inteqrasiya olunmaqla, məlumatları "Açıq məlumatlar" portalında yerləşdiriləcək. "Rəqəmsal ekologiya" informasiya sisteminin yaradılmasında məqsəd dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasını, proqnoz və hesabatların hazırlanmasını və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini təmin etməkdir. REİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətini müasir prinsiplər əsasında qurmağı hədəfləyir. Sistem ETSN-lə fiziki və hüquqi şəxslər arasında əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, həmin informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin etmək məqsədi daşıyır.

REİS-in fəaliyyətinin təşkili, onun saxlanılması, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər ETSN-nin sərəncamında olan məqsədli büdcə fondları və qanunla qadağan olunmayan digər mənbələr hesabına...

Bax səh. 3

## Etibarlı və məsuliyyətli tərəfdaş




Bax səh. 3

## Yeni Azərbaycan Partiyası müşavirə keçirib

Bax səh. 4

## Bələdiyyələrin inkişafı üçün yeni perspektivlər yaranıb

Bax səh. 4

## Bütün hədəflər gerçəkləşdiriləcək!

Bax səh. 4

## Ermənistan üçün saziş, Cənubi Qafqaz üçün təhdid...

Bax səh. 7

## Vahid informasiya məkanı

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə "Milli Məkan Məlumatları" informasiya sistemi yaradılıb. Dövlət başçısının tapşırığına əsasən, İqtisadiyyat və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi birlikdə "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq, "Milli Məkan Məlumatları" informasiya sisteminin "Hökumət buludu"nda yerləşdirilməsini təmin edəcək. Eyni zamanda, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti məlumat sistemi infrastrukturunu dövlət informasiya ehtiyatları sistemlərinə inteqrasiyası ilə bağlı zəruri addımlar atacaq.

"Milli Məkan Məlumatları" informasiya sistemi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin, habelə dövlət adından yaradılan publik hüquqi şəxslərin, eləcə də büdcə təşkilatları bələdiyyələrin fəaliyyətini vahid informasiya blokunda birləşdirəcək. Məqsəd bütün bu qurumların fəaliyyəti ilə bağlı zəruri məlumatların bir mərkəzdə toplanması və emalının təmin edilməsi, bu yolla həmin təşkilatların gördüyü işlər barədə operativ və detallı informasiyaları cəmiyyətə təqdim etməkdir. Sistemin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından, habelə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Nəticədə, bu müasir informasiya siyasətinin təşkili sayəsində dövlət təşkilatlarının fəaliyyətininin səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin əlçatanlığını təmin edəcək.

Milli Məkan Məlumatları sisteminin yaradılması, eyni zamanda, məlumatların emalı və saxlanmasında təkrarçılığın aradan qaldırılması baxımından mühüm əhəmiyyət...

Bax səh. 3

## Avropa Parlamenti yeni yalanlara əl atır



Bax səh. 7

## Bayden gedir, Tramp gəlir...



Bax səh. 6

# Qlobal gündəmi müəyyənləşdirmək üçün yeni imkanlar...

## Əbu-Dabi Dayanıqlılıq Həftəsi

Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Tədbirdə çıxış edən Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir ölkəsinin dayanıqlılıq sahəsində həyata keçirdiyi siyasət və layihələr barədə məlumat verib, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin mühüm beynəlxalq platforma kimi rolunun artdığını qeyd edib.

Sonra Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimi olub.

Daha sonra Zayed Dayanıqlılıq Mükafatının qalibləri ilə xatirə fotosu çəkdirilib.

Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak edir.

"Davamlı gələcək üçün sektoral inteqrasiya" mövzusunda keçirilən tədbirdə 175-dən artıq ölkədən 50 mindən artıq qonaq, o cümlədən, dünya liderləri, hökumət başçıları, 1000-dən artıq biznes icmasının nümayəndələri iştirak edir. Əbu-Dabi Dayanıqlılıq Həftəsi 2008-ci ildən etibarən hər il BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində təşkil edilir və dünyanın dayanıqlılıq üzrə ən aparıcı tədbirlərindən biri hesab olunur. İqlim dəyişiklikləri ilə bağlı çağırışlarla mübarizədə, davamlı iqtisadi inkişafın və yaşıl bərpa prosesinin təmini məqsədilə səylərin birləşdirilməsi istiqamətində mühüm strateji platforma hesab olunur.









## Körfəz ölkələrinin investisiyalarının Azərbaycana təşviqində mühüm rol oynayan platforma

Yanvarın 18-dək davam edəcək bu ilki Dayanıqlıq Həftəsi çərçivəsində dünya ölkələrini yüksək səviyyədə təmsil edən şəxslər insan inkişafı və dayanıqlı həllər istiqamətində öz təşəbbüs və təkliflərini irəli sürəcək, müasir innovasiyalı və rəqəmsal iqtisadiyyatların inkişafı yolunda strategiyaları müəyyənləşdirəcəklər.

Sammitin gündəliyində, həmçinin süni intellekt prioritet olmaqla, qabaqcıl texnologiyalar və insan təcrübələri arasında əlaqələrin qurulmasının əhəmiyyəti vurğulanacaq, dayanıqlı inkişafı təşviq etmək və bütün cəmiyyətləri əhatə edən firavan gələcək qurmaq məqsədləri yer alır. Ümumilikdə, tədbirin strateji hədəfi, eyni zamanda dayanıqlılıq problemlərini həll etmək və iqtisadi transformasiya imkanlarını gücləndirmək üçün qlobal gündəmi müəyyənləşdirməkdir. Belə ki, toplantıya qatılan ölkələrin iri investisiya holdinqləri, iqtisadi, sosial və texnoloji irəliləyişləri təşviq etmək və dəyəri 10 trilyon dollardan çox olan iqtisadi transformasiya ilə bağlı imkanları araşdırmaqdır.

Əbu-Dabi Dayanıqlılıq Həftəsində Azərbaycan üçün də mühüm siyasi-iqtisadi əhəmiyyət daşıyır. Azərbaycan ərəb dövlətləri ilə iqtisadi, ticarət və mədəni əlaqələri son illərdə inkişaf etdirərək yeni mərhələyə çatdırıb. Əvvəlki illərdə körfəz və ərəb ölkələri ilə Azərbaycan arasında iqtisadi gündəliyin əsas strukturu neft-qaz və ənənəvi enerji sahələrinə söykənirdisə, son 4 ildə iqtisadi coğrafiya həm sahələr üzrə, həm də dinamika baxımdan xeyli genişlənib. Münasibətlərin ritmində qeyri-neft sektoru, ələxus da bərpaolunan enerji bölmələri ön plana çıxmaqla biznes blokları arasında işgüzar təmasları da şaxələndirib.



## Dayanıqlılıq Həftəsi regionda tranzit-logistika coğrafiyasını genişləndirə bilər

Respublikamızın Körfəz Əməkdaşlığı Şurasında (KƏŞ) yer almasından sonra əlaqələrin dinamikası daha da genişlənib. Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Omandan ibarət Körfəz Əməkdaşlıq Şurası Azərbaycanla ikitərəfli və çoxtərəfli əlaqələri artırmaq üçün müxtəlif siyasi-iqtisadi qərarlar qəbul edib. Azərbaycan hökuməti ilə körfəz ölkələrinin inkişaf fondları və şirkətləri ilə imzalanmış anlaşma memorandumları yeni prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsinə dərin zəmin yaradıb, ərəb sərmayəçilərinin sənaye və "yaşıl enerji" sahələrində iritutumlu layihələrə maliyyə ayırmasını təmin edib. Eyni zamanda, Azərbaycanın KƏŞ ölkələri ilə ticarət mübadiləsinin həcmi də son illərdə artıb. 2023-cü ildə əmtəə dövriyyəsində əhəmiyyətli dinamika qeydə alınıb və mal mübadiləsi 175 milyon dollara çatıb.

2024-cü ilin yanvar-noyabr aylarında Azərbaycan ilə Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr arasında ticarət dövriyyəsi 30 faizə yaxın artaraq 200 milyon dollara yaxınlaşıb. Eyni zamanda, tərəflərin investisiya qoyuluşlarında da artımlar müşahidə edilir, hazırda KƏŞ ölkələri tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların həcmi 4 milyard dollardan çoxdur. Ancaq həm ticarətdə, həm də sərmayələrdə imkanlar mövcud potensialdan qat-qat böyükdür.

Səudiyyə Ərəbistanının "ACWA Power", BƏƏ-nin "Masdar" şirkəti ilə "yaşıl enerji" sahəsi üzrə imzalanmış müqavilələrin investisiya tutumu 2 milyard dollardan artıqdır. Respublikamızın mövcud tranzit-logistika imkanlarının genişlənməsi isə əməkdaşlığın coğrafiyasının daha da genişlənməsi və iqtisadi mübadilələrin artmasına əlverişli şərait yaradır.

Beləliklə, Əbu-Dabi Dayanıqlılıq Həftəsində davamlı iqtisadi inkişaf təşəbbüsləri, rəqəmsal və yaşıl bərpa prosesi, qabaqcıl texnologiyalar və digər istiqamətlər üzrə əldə edilən razılaşmalar Azərbaycana ərəb və digər region ölkələrinin iri investisiya şirkətlərinin sərmayə planlarını da təşviq edəcək.

***ELBRUS CƏFƏRLİ***

# Azərbaycanın yaratdığı reallıqlardan qorxanlar...

Cənubi Qafqaz son illərdə mühüm siyasi-iqtisadi yeniliklərlə daha çox diqqət mərkəzinə düşür. Xüsusilə, post-müharibə dövründə Azərbaycanın bölgədə formalaşdırdığı yeni reallıqlar regional əməkdaşlığın inkişafına böyük töhfələr verir. Azərbaycanın ortaya qoyduğu səylər mühüm nəticələrə yol açır - yaşadığımız coğrafiyada sıx tərəfdaşlıq mühiti yaranır, təhlükəsiz ticari münasibətlərin inkişafı vüsət alır, siyasi dialoqun güclənməsi müşahidə edilir. Çoxvektorlu xarici siyasət kursunda tərəfdaşlığı hər zaman prioritet seçmiş Azərbaycan xüsusilə region ölkələrilə münasibətlərə həssas yanaşır - bu baxımdan, ölkəmiz Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə ən yüksək səviyyədə siyasi-iqtisadi əlaqələrə malikdir.

## Biz heç kimdən qorxmuruq və haqlı olan tərəf bizik!

Təbii ki, münasibətlərdə ən əsas göstərici səmimilik, dürüstlük və qarşılıqlı şəkildə maraqlara köklənməkdir. Bu olmadığı halda, yüksək münasibətlər barədə danışmaq yersiz olur. Azərbaycan bütün ölkələrə qarşı eyni mövqeydən yanaşma sərgiləyir - biz hər zaman məsələlərə qarşılıqlı maraqlar kontekstindən yanaşırıq. Təəssüfləndirici haldır ki, bəzi məqamlarda bu amil digər dövlətlər tərəfindən layiqincə qiymətləndirilmir.

Məsələn, qonşu İrana münasibətdə Azərbaycan hər zaman həssaslıq və diqqət nümayiş etdirib. Hətta bir çox məqamlarda İranın təhlükəsizliyinin təmin edilməsi məsələsində belə Azərbaycan qətiyyətli mövqeyi ilə seçilib. Amma bizim bu yüksək davranışımıza qarşı Tehranın bir sıra məsələlərdə ortaya qoyduğu mövqe adekvat sayıla bilməz. Xüsusilə, Ermənistanla bağlı məsələlərdə, Zəngəzur dəhilizi ilə bağlı müzakirələrdə Tehranın nümayiş etdirdiyi mövqe anlaşılan deyil. Düzdür, hazırkı hakimiyyətlə hələlik ciddi təmaslar olmasa da, daha çox iqtisadi kontekstdə əlaqələr mövcuddur. İqtisadi kontent isə qarşılıqlı əlaqələrdə tamam fərqli bir istiqamət sayılır.

Əvvəlki hakimiyyət isə ölkəmizə qarşı açıq qeyri-adekvat münasibət bəsləyirdi - bunun səbəbi isə olduqca qəribədir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi ilə sanki İranın bölgədəki "işləri" düz getmədi. Onların Qarabağdan keçərək Ermənistana gediş-gəlişində "problemlər" yarandı və bu da nəticə etibarı ilə Tehranın mövqeyinə açıq təsir göstərdi. Bu isə qarşılıqlı münsibətlərdə özünü biruzə verdi. Prezident İlham Əliyev yerli telekanallara müsahibəsində deyib ki, ondan sonra bizə qarşı o məlum hədə-qorxu addımları, təlimlər, bəyanatlar, hədələr başlamışdı: "Biz də adekvat addımlar atdıq. Bizim sərhədimizdə əgər hər hansı bir təlim, hərbi təlim keçirilirsə, biz də Azərbaycan-İran sərhədinin bu tərəfində eynisini etdik. Yəni, göstərdik ki, biz heç kimdən qorxmuruq və haqlı olan tərəf bizik".

## İran mollası ənənəvi "ampluada"...

İranla münasibətlərdən danışarkən, 2023-cü il yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyinə edilən terror hücumuna ayrıca toxunmaq lazımdır. Terror aktını yerinə yetirən İran vətəndaşı Yasin Hüseynzadənin indiyə qədər cəzalanmaması Tehranın məsələyə səthi münasibət göstərməsi ilə yanaşı, ortada fərqli maraqların olmasından da xəbər verir. Hadisənin başvermə şəraiti də təsdiqləyir ki, bu, sadəcə bir terror hadisəsi deyil - bu təşkil olunmuş bir terror hadisəsi idi. Əvvəlcə məsələni yayındırmaq üçün fərqli yollara əl atan İran Azərbaycanın ortaya qoyduğu mövqedən sonra məsələyə ciddi yanaşma sərgilədi və cinayətkarla bağlı qərar qəbul edildi. Amma onun icrası hələ də təmin edilməyib.

Digər tərəfdən, İranda baş verən bəzi hadisələr bu ölkənin daxilində vahid siyasi xəttin olmadığını deməyə əsas verir. İranın bəzi əyalət mollarının davranışı özbaşınalığın və hakimiyyətdaxili qruplar arasındakı ziddiyyətləri ortaya qoyur. Məsələn, bir müddət öncə Ərdəbil mollasının davranışı kimi.

Prezident İlham Əliyev bildirib ki, şəxsən yeni prezidentlə görüşü olmayıb. O ki qaldı, əyalət mollasının bizə qarşı nifrət münasibətinə, bu, birinci dəfə deyil: "Ərdəbil şəhərinin o mollası dəfələrlə Azərbaycana, Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr işlədib, o cümlədən mənə qarşı. Burada sual ondan ibarətdir ki, onu o vəzifəyə təyin edən adam buna necə münasibət göstərir. Axı o, özbaşına gəlib orada oturmayıb. Onu kim təyin edir, biz yaxşı bilirik. Onun reaksiyası nədir, o, bunu dəstəkləyir, yoxsa yox və Azərbaycandan kim üzr istəyəcək? Üzr istəyəcəklər, yoxsa yox?".



Bəli, göründüyü kimi, İranın bəzi dairələri sanki Azərbaycanın əldə etdiyi, eyni zamanda bütövlükdə regionun inkişafı üçün hədəflədiyi üstünlüklərdən çəkinir, buna mane olmağa çalışır. Bu isə dövlətlərarası münasibətlərdə heç də müsbət tendensiya yaratmır - tam əksinə, yeni siyasi nizamda bu kimi etimadsızlıq mühiti nəticə etibarı ilə olduqca mənfi çalarlara yol açır. Azərbaycana qarşı hansısa məkrli plan hazırlayanlar hər zaman özlərinin "qazdıqları quyuya" düşüblər. Bunu tarix bir çox misallarla sübut edib...

## Yaxın Şərqdə Türkiyə ilə çiyin-çiyinə...

Ölkəmizin ümumən bölgəsəl məsələlərdə tutduğu mövqe hər zaman regional maraqlarla, beynəlxalq hüquqda və ədalətlə səsləşib. Biz həm Şərq, həm Qərb, həm Ərəb, həm də bütövlükdə İslam dünyası ilə əlaqələrə xüsusilə önəm veririk. Bu gün Suriyada baş verənlərə münasibətdə sərgilənən mövqe bunu deməyə əsas verir. Erməni yalanlarını dəstəkləyən, terrorçu hərəkətlərinə haqq qazandıran Əsəd rejimi tarixin arxivinə göndərilib. Təbii ki, bu uğurun əldə olunmasında Türkiyənin xidmətləri danılmazdır. Azərbaycanın rəsmi müttəfiqi, mühüm bir coğrafiyanın aparıcı siyasi-hərbi aktoru olan Türkiyə bütün dövrlərdə terrora qarşı mübarizənin ön sırasında yer alıb. Bu mübarizədə Ankara hər zaman ən yaxın müttəfiqi olan Azərbaycana güvənir, dəstəyini hiss edir. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Türkiyənin Suriyanın inkişafındakı rolu çox əhəmiyyətlidir: "Mən Əsəd rejiminin çökməsindən sonra Prezident Rəcəb Tayyib Ərdoğana zəng edərək, həm bu münasibətlə bir-birimizi təbrik etmişik, həm də bildirdim ki, biz də Türkiyənin yanında olmağa hazırıq və bunu etməyə də başlamışıq".

Vurğulandığı kimi, vaxtilə Ermənistanın dəstəkçisi olan Əsəd rejimi dövründə bu ölkə Azərbaycana qarşı bütün proseslərdə yer alırdı - indi isə vəziyyət dəyişib. Artıq Suriya yeni nizama yeni reallıqlarla qədəm qoyur. Yeni dövrdə Azərbaycanın Yaxın və Orta Şərqdə iqtisadi inkişafın yenilənməsi prosesində Türkiyə ilə yanaşı addımlaması üçün mühüm şərtlər yaranıb. Bu isə ümumilikdə İslam dünyasında yeni bir mərhələ başladır. Yeni iqtisadi münasibətlər fonunda İslam ölkələri arasında əlaqələr güclənir, yeni üfüqlər yaranır. Dövlət başçısı deyib ki, İslam Əməkdaşlıq Təşkilatının bütün tədbirlərində biz fəal iştirak etmişik və fəal iştirak edəcəyik: "Yəni, bizim mövqeyimiz tam açıqdır".

***P.İSMAYILOV***

# “Rəqəmsal ekologiya” ...



## REİS ekologiya ilə bağlı göstərilən xidmətlərin əlçatanlığını təmin edəcək

Prezident İlham Əliyevin yanvarın 10-da imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə “Rəqəmsal ekologiya” informasiya sistemi (REİS) yaradılıb.

“Rəqəmsal ekologiya” informasiya sistemi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) fəaliyyət istiqamətləri üzrə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə nazirliyin fəaliyyətinin, habelə digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin əlçatanlığını təmin edəcək. REİS-in sahibi funksiyalarını nazirlik, operatoru funksiyalarını isə nazirliyin tabeliyindəki “Geodeziya və Kartoqrafiya Agentliyi” publik hüquqi şəxs həyata keçirəcək.

## REİS “Hökumət buludu”na inteqrasiya olunacaq

REİS “Hökumət buludu”na inteqrasiya olunmaqla, məlumatları “Açıq məlumatlar” portalında da yerləşdiriləcək. “Rəqəmsal ekologiya” informasiya sisteminin yaradılmasında məqsəd dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasını, proqnoz və hesabatların hazırlanmasını və göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini təmin etməkdir. REİS rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətini müasir prinsiplər əsasında qurmağı hədəfləyir. Sistem ETSN-lə fiziki və hüquqi şəxslər arasında əlaqələrin operativliyini, səmərəliliyini, şəffaflığını, eləcə də göstərilən xidmətlərin, həmin informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin etmək məqsədi daşıyır.

REİS-in fəaliyyətinin təşkili, onun saxlanılması, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər ETSN-nin sərəncamında olan məqsədli büdcə fondları və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdiriləcək.

## “Mobil Prioritetli Tərtibat” prinsipi

REİS-in texniki-texnoloji infrastrukturu proqram-texniki vasitələr və proqram təminatına əsaslanacaq. Bu infrastruktura telekommunikasiya qurğuları və kanalları, informasiya ehtiyatı və onu idarəetmə paneli, ehtiyat nüsxələr daxildir. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurularaq, REİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə REİS-dən istifadəni və məlumat mübadiləsini təmin edəcək. REİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin etmək üçün dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malik olacaq. REİS-ə daxil edilən və ötürülən məlumatlar REİS-in informasiya ehtiyatında saxlanılacaq. Qurumun fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə REİS-də toplanılan məlumatlar, eləcə də ehtiyat nüsxələri “Hökumət buludu”nda saxlanılacaq.

REİS-ə ötürülən məlumatların tərkibində vətəndaşının şəxsiyyət vəsiqəsi məlumatları, ekoloji fəaliyyətlə bağlı icazə sənədinin məlumatları, vergi ödəyicisi olması barədə informasiyalar, pensiya və qüvvədə olan əmək müqaviləsi üzrə məlumatlar yer alacaq.

## İdarəetmənin çevikliyi və keyfiyyəti artacaq

REİS-də formalaşdırılan sənədlər “Elektron imza və elektron sənəd haqqında” qanunla müəyyən edilmiş tələblərə əsasən tərtib olunaraq rəsmiləşdiriləcək.

“Rəqəmsal ekologiya” ölkəmizdə ətraf mühitin qorunması və “yaşıl iqtisadiyyat” quruculuğu istiqamətində yürüdülən siyasətin mühüm tərkib hissəsi kimi də dəyərləndirilə bilər. 2024-cü ildə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ekoloji layihələrin icrasında yeni baxış və yanaşmalar, bu sahədə rəqəmsal təşəbbüskarlığın artması, habelə COP 29 çərçivəsində ekoloji tarazlığın qorunub saxlanılması istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdə rəqəmsal texnologiyalara üstünlük verilməsi REİS-in yaranmasını labüdləşdirdi.

Beləliklə, “Rəqəmsal ekologiya” informasiya sisteminin yaradılması Ekologiya və Təbii Sərvətlər Nazirliyinin göstərdiyi elektron xidmətlərin vahidliyini və daha müasir infrastruktura əsaslanmaqla çevikliyini təmin edəcək, digər dövlət və qeyri-dövlət orqanları ilə məlumat inteqrasiyasını genişləndirəcək. Vətəndaşlar asan və rahat, fiziki təmaslar olmadan rəqəmsal ekologiya sxemi üzrə “Elektron hökumət” portalında zəruri xidmətlərə çıxışını təmin edəcək. Bu proses qeyd olunan sahədə idarəetmənin çevikliyinin və keyfiyyətinin artmasına, şəffaflığın möhkəmlənməsinə də səbəb olacaq.

*E.CƏFƏRLİ*

# Vahid informasiya məkanı

## “Milli Məkan Məlumatları” informasiya sistemi iqtisadiyyatın və idarəetmənin səmərəliliyini artıracaq

Prezident İlham Əliyevin imzaladığı müvafiq fərmana əsasən, ölkəmizdə “Milli Məkan Məlumatları” informasiya sistemi yaradılıb. Dövlət başçısının tapşırığına əsasən, İqtisadiyyat və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi birlikdə “Hökumət buludu” (G-cloud) Konsepsiyası”na uyğun olaraq, “Milli Məkan Məlumatları” informasiya sisteminin “Hökumət buludu”nda yerləşdirilməsini təmin edəcək. Eyni zamanda, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti məlumat sistemi infrastrukturunu dövlət informasiya ehtiyatları sistemlərinə inteqrasiyası ilə bağlı zəruri addımlar atacaq.

## Dövlət qurumları, publik hüquqi şəxslər və bələdiyyələrin informasiya bloku

“Milli Məkan Məlumatları” informasiya sistemi rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və səhmləri dövlətə məxsus olan hüquqi şəxslərin, habelə digər adından dövlət adından publik hüquqi şəxslərin, eləcə də büdcə təşkilatları bələdiyyələrin fəaliyyətini vahid informasiya blokunda birləşdirəcək. Məqsəd bütün bu qurumların fəaliyyəti ilə bağlı zəruri məlumatların bir mərkəzdə toplanması və emalının təmin edilməsi, bu yolla həmin təşkilatların gördüyü işlər barədə operativ və detallı informasiyaları cəmiyyətə təqdim etməkdir. Sistemin formalaşdırılmasının məqsədi dövlət idarəetməsinin optimallaşdırılmasından, eləcə də müvafiq sahə üzrə təhlil aparılmasından, proqnoz və hesabatların hazırlanmasından, habelə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Nəticədə bu müasir informasiya siyasətinin təşkili sayəsində dövlət təşkilatlarının fəaliyyətinin səmərəliliyi, şəffaflığı, eləcə də göstərilən xidmətlərin əlçatanlığı təmin edəcək.

## Məlumatlar Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya olunacaq

Milli Məkan Məlumatları sisteminin yaradılması, eyni zamanda, məlumatların emalı və saxlanmasında təkrarçılığın aradan qaldırılması baxımından mühüm əhəmiyyət daşımaqla, dövlət büdcəsindən bu sahəyə ayrılan pul vəsaitlərinin qənaətinə də imkan verəcək, həmçinin vəsaitlərin səmərəli idarə edilməsinə səbəb olacaq.

Milli məkan məlumatları üzrə xidmətlərin real vaxt rejimində, keyfiyyətli və operativ göstərilməsi üçün bütün zəruri rəqəmsal infrastrukturlar qurulacaq. Sistemin texniki-texnoloji infrastrukturu proqram təminatı, informasiya ehtiyatı və onun idarəetmə panelinə, telekommunikasiya qurğuları və kanallarına, ehtiyat nüsxələrə söykənəcək. Proqram təminatı və digər texniki vasitələr vətəndaş və biznes yönümlü həllər əsasında “Mobil Prioritetli Tərtibat” prinsipi ilə qurulacaq. Sistemin fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları İqtisadiyyat Nazirliyinin struktur bölmələri tərəfindən formalaşdırılacaq.

Müvafiq təşkilatlar öz informasiyalarını sistemə Elektron Hökumət İnformasiya Sistemi üzərindən mübadilə etməklə həyata keçirəcək. Məlumatların təhlükəsizliyinin təmin edilməsi məqsədilə sistemin informasiya nüsxələri “Hökumət buludu”nda saxlanılacaq. Müvafiq qurumların sistemə daxil olması üçün rəqəmsal imza, o cümlədən elektron imza tələb olunur, bütün məlumatlar həmin rəqəmsal imzalarla rəsmiləşdiriləcək.

## Azad ərazilərdə torpaq islahatlarının aparılması üçün dolğun məlumat bazası

Milli məkan infrastrukturunun qurulmasından sonra dövlət və digər qurumların məlumatlarının Elektron Hökumət İnformasiya Sistemində inteqrasiyası sürətlənəcək. Milli məkan informasiya infrastrukturu dövlət qurumları, publik hüquqi şəxslər, dövlətə aid səhmdar cəmiyyətlərin idarəetməsində düzgün qərarların qəbul edilməsini, qurumlar arasındakı qarşılıqlı əlaqənin səmərəliliyini, onların fəaliyyətləri barədə məlumat açıqlığını və operativ informasiya mübadilələrini təmin etməklə vətəndaşların bütün məlumatları əldə etmələrinə imkan yaradacaq. Yeri gəlmişkən, bu sistem azad olunmuş ərazilərdə torpaq, xəritəçəkmə, geodeziya işləri barədə, o cümlədən torpaq islahatlarının aparılması üçün zəruri məlumatların toplanması və vahid məkana inteqrasiya edilməsində də əhəmiyyətli baza olacaq. Çünki geoməkan məlumatları iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən, kənd təsərrüfatı, torpaq idarəçiliyi sahəsində idarəetmə qərarlarının dəstəklənməsi üçün formalaşan informasiya mühitinin əsasını təşkil edir. Bu baxımdan azad ərazilərin geoməkanı və resursları haqqında daha dolğun və səhidi informasiyaların cəmlənməsi iqtisadi fəaliyyət, eləcə də biznesin perspektiv investisiya planları üçün bir sıra məlumatlar əldə edərək qərarlar qəbul etməsinə kömək edəcək.

Beləliklə, müasir çağırışlar fonunda formalaşan milli məkan məlumat arxitekturası ölkədə iqtisadiyyatın və idarəetmənin səmərəliliyinə müsbət təsir göstərəcək, eyni zamanda, dövlət və biznes qurumları arasında operativ və şəffaf qarşılıqlı əlaqəni nizamlayacaq. Bu sistem bələdiyyə idarəçiliyin keyfiyyətinin artırılması, biznes mühitinin dayanıqlı inkişafında da mühüm rol oynayacaq.

*E.CƏFƏRLİ*

# Etibarlı və məsuliyyətli tərəfdaş

## Azərbaycan Avropa ölkələrinin enerji təhlükəsizliyində rolunu artırır

Prezident İlham Əliyev yanvarın 7-də yerli telekanallara müsahibəsində Azərbaycanın Avropa ölkələrinin enerji təminatında artan roluna diqqət çəkərək ölkəmizin qaz ixracının növbəti illərdə daha yüksələcəyini xatırladıb. Dövlət başçısı bildirib ki, ölkəmiz Cənub Qaz Dəhlizi şəbəkəsi ilə qaz təchizatının coğrafiyasını genişləndirir, son dövrlərdə Avropada istismara verilmiş yeni interkonnektorlar vasitəsilə müxtəlif bazarlara çıxış imkanları yaranır. Hazırda Azərbaycan qazını əldə edən Avropa ölkələrinin sayı 10-a bərabərdir. Avropa İttifaqının üzvü olan bir çox ölkə hazırda öz daxili qaz istehlakının təxminən yarısını Azərbaycan qazı ilə təmin edir. Ümumilikdə, Azərbaycanın yanacaq ixrac etdiyi ölkələrin sayı isə 12-yə bərabərdir.

## 12 ölkənin dayanıqlı təminatçısı

Qeyd edək ki, 2024-cü ilin yanvar-noyabr ayları üzrə (illik yekun rəqəm açıqlanmayıb) respublikamızda 26,5 milyon ton neft, 45,8 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 12,1 milyard kubmetri “Azəri-Çıraq-Günəşli”, 25,3 milyard kubmetri “Şahdəniz”, 1,4 milyard kubmetri “Abşeron” yatağı, 7 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. Qaz hasilatı ötən ilin müvafiq dövrünə nisbətən 1,8 milyard kubmetr artıb. Hesabat dövründə xaricə qaz satışı 22,9 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 faiz çoxdur. Mavi yanacağın 11,7 milyard kubmetri Avropaya, 9 milyard kubmetri Türkiyəyə, 2,2 milyard kubmetri isə Gürcüstana nəql edilib. Türkiyəyə TANAP-la bu müddətdə 5,1 milyard kubmetr qaz nəql olunub. Ümumilikdə, “Azəri-Çıraq-Günəşli”və “Şahdəniz” yataqlarından indiyədək 167,6 milyard kubmetr qaz ixrac edilib.

2025-ci ilin ilk günlərində Azərbaycandan qaz alan ölkələrin sayı Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya olmaqla sabit qalıb. Yeri gəlmişkən, “Şahdəniz” qazkondensat yatağındakı “Alfa” platforması ilə Səngəçal terminalı arasındakı sualtı kondensat boru kəmərində texniki problemlə əlaqədar platformanın fəaliyyəti bir neçə gündür ki, dayandırılsa da, Azərbaycan bu günlərdə qaz nəql etdiyi ölkələrin heç birinin təchizatında fasilə verməyib, həmçinin, qazın həcmlərində azalma olmayıb. Bu, ölkəmizin bir daha etibarlı və məsuliyyətli tərəfdaş olduğunu təsdiqləyir. Azərbaycanın bu həssas davranışı Avropa ölkələri tərəfindən təqdir edilib, Serbiya Prezidenti Aleksandar Vuçiç Azərbaycana və Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

## Ehtiyatlar 2.6 trilyon kubmetr təşkil etsə də...




Azərbaycanda qaz mənbələri kifayət qədər genişdir. Hasilatda əsas mənbə olan “Şahdəniz -2” layihəsindən başqa, “Abşeron” və “Ümid” yataqları, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli “Şəfəq-Asiman”, “Qarabağ”, “Babək”, “Zəfər-Məşəl” və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Dövlət başçısının vurğuladığı kimi bir neçə il öncə mövcud yataqlar üzrə ehtiyatların həcmi 2,6 trilyon kubmetr təşkil etsə də, yeni kəşf edilmiş, o cümlədən gələcəkdə nəzərdə tutulan ehtiyatlar potensialımızı daha da artıracaq. Bu isə Azərbaycanın istehsal və nəql zəncirini daha da genişləndirəcək.

## Yaxın 5 illik proqnoz: İxracın həcmi 30 milyard kubmetrə çatacaq

Hazırda illik 25 milyard kubmetr qaz nəql edən Azərbaycanın yaxın 5 il ərzində hasilatı və ixracı 20 faiz artıraraq ixracın həcmini 30-31 milyard kubmetrə qədər çatdırması proqnozlaşdırılır. Həmin qazın 20 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu nikbin proqnozlar Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) bir neçə ay əvvəl açıqladığı hesabatda da öz əksini tapıb. Həmin pronozlara əsasən, Avropanın etibarlı və uzunömürlü qaz təminatı strategiyasında Azərbaycanın rolu daha da artacaq və 2025-2027-ci illərdə ölkəmizin qaz istehsalı və nəqli 40 faiz çoxalacaq. Nəticədə Avropaya qaz nəql edən TAP kəmərinin illik gücü 20 milyard kubmetri də ötmüş olacaq. Həmçinin, Avropa İttifaqı ölkələrinə Azərbaycanın enerji resursları ilə yanaşı, digər Xəzəryanı ölkələrin də yanacaq ehtiyatlarının cəlb olunması nəzərdə tutulur. Hazırda Aİ-nin enerji məsələləri üzrə nümayəndə heyəti ilə digər türk dövlətlərinin - Türkmənistan, Özbəkistan və Qazaxıstanla yanacağın Cənub Qaz Dəhlizinə ötürülməsi istiqamətində aktiv danışıqlar aparılmaqdadır. Bu isə Cənub Qaz Dəhlizinin daha da genişlənməsini təmin edəcək.

Beləliklə, mövcud istehsal dinamikası və perspektiv yataqlardakı hasilat işlərinin irəliləməsi tamamilə imkan verir ki, Azərbaycan Avropa Komissiyası ilə 2022-ci ildə imzaladığı anlaşmada nəzərdə tutulduğu həcmdə - qazın 2027-ci ilə qədər iki dəfə artırılaraq 20 milyard kub.metrə çatdırılması öhdəliyini təmin edəcək.

*E.CƏFƏRLİ*

# Yeni Azərbaycan Partiyası müşavirə keçirib





Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 14-də Yeni Azərbaycan Partiyasının Tədbirlər Planına uyğun olaraq Mərkəzi və dairə seçki komissiyalarında fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlərlə onlayn müşavirə keçirilib.

Müşavirədə məşvərətçi səs hüquqlu üzvlərin hüquq və vəzifələri barədə ətraflı məlumat verilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinin də demokratik, şəffaf və ədalətli keçirilməsi üçün Mərkəzi və dairə seçki komissiyalarında fəaliyyət göstərəcək məşvərətçi səs hüquqlu üzvlərin üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunub.

# Bütün hədəflər gerçəkləşdiriləcək!




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qaradağ rayonu, Lökbatan, Qızıldaş və Müşfiqabad bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Qaradağ rayon təşkilatı sədrinin müavini Faiq Qurbanov Azərbaycanda yerli özünüidarəetmənin inkişafının diqqət mərkəzində olduğunu bildirib. O, YAP-ın seçki proqramında bu sahə ilə əlaqədar əsas hədəfləri diqqətə çatdıraraq "Heç şübhəsiz, Yeni Azərbaycan Partiyası növbəti dəfə qələbə qazanacaq və bütün hədəflər gerçəkləşdiriləcək", - deyə vurğulayıb.

Görüşlərdə çıxış edən Milli Məclisin deputatları Aydın Hüseynov və Səbinə Xasayeva, seçki qərargahının üzvü Cavanşir Əliyev, şəhid anası Fəridə İsmayılova, bələdiyyə üzvlüyünə namizədlər Əlizamin Məmmədov, Türkanə Əliyeva, Zöhran Babayev, Elmira Əliyeva, Azad Musayev və Rəna Feyziyeva bələdiyyələrin inkişafı istiqamətində qarşıda mühüm vəzifələrin durduğunu və Yeni Azərbaycan Partiyasının bu sahədə məqsədyönlü fəaliyyət həyata keçirmək əzmində olduğunu bildiriblər.



# Bələdiyyələrin inkişafı üçün yeni perspektivlər yaranıb




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Xaçmaz rayonu, Xaçmaz, Yergüc, Köhnə Xaçmaz, Nərəcan və Çarxı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşov bildirib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı təmin olunub. Onun sözlərinə görə, həyata keçirilən tədbirlər bələdiyyə institutunun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. M.Balaqadaşov yerli özünüidarəetmənin inkişafı üçün yeni perspektivlərin yarandığını diqqətə çatdırıb.



Seçki qərargahının üzvləri Nazim Ağayev, Abasyar Heydərov, bələdiyyə üzvlüyünə namizədlər Ozal Əşəndiyev və Aytac Ramazanova YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib və bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində rolundan danışaraq seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# İslahatlar davam etdiriləcək




2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağstafa rayonu, Muğanlı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Seçki qərargahının üzvü Tağı İmamverdiyev, təşviqat qrupunun üzvləri Fəxrəddin Səfiyev, Fəramiz Məmmədov, bələdiyyə üzvlüyünə namizədlər Nuridə Hüseynova və Asif Məmmədov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. "Əldə edilmiş nailiyyətlərlə yanaşı, qarşıda yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə islahatların davam etdirilməsi, bələdiyyə institutlarının idarəetmədə rolunun gücləndirilməsi və bir çox mühüm hədəflər durur", - deyə vurğulanıb.

Seçicilər Nəbi Mursaquliyev, Reyhan Yolçuyeva və digərləri bələdiyyə seçkilərində aktiv iştirak edərək YAP-ın namizədlərini dəstəkləyəcəklərini bildiriblər.



# Ağsu seçiciləri YAP-ın namizədlərinə səs verəcəklər!




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağsu rayonu, Ağsu bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev bələdiyyə seçkilərinin önəmindən, yerli özünüidarəetmə sahəsində görülən işlər, əldə olunan nailiyyətlər və qarşıda duran məqsədlərdən bəhs edib.

Təşviqat qrupunun üzvləri Vaqif Nəzərov, İslam Bəhrəmov, bələdiyyə üzvlüyünə namizədlər Nadir Orucov, Ləman Abasova və Sevinc Beybudova YAP-ın seçki platforması barədə ətraflı məlumat verib, yeni dövrdə qarşıya qoyulan hədəflərə nail olmaq üçün seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

Seçicilər Məhəmmədhüseyn Təhmasib, Elçin Novruzov və başqaları səsvermə günü seçki məntəqələrinə gələrək partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər. "Uğurların davamı naminə seçimimiz Yeni Azərbaycan Partiyasıdır!", - deyə vurğulanıb.



# Yeni Azərbaycan Partiyası ölkəmizə yeni nailiyyətlər qazandıracaq!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Sabunçu rayonu, Bakıxanov bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Sabunçu rayon təşkilatı sədrinin müavini Zülfüqar Cəfərov bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının zəngin seçki təcrübəsinə malik olduğunu, Azərbaycanın müasir, demokratik və hüquqi dövlət kimi tərəqqisinə layiqli töhfələr verdiyini bildirib. "Yeni Azərbaycan Partiyası ölkəmizə yeni nailiyyətlər qazandıracaq", - deyə vurğulanıb.



Tədbirdə çıxış edən seçki qərargahının üzvləri Oruc Əhmədov, Ata Babayev, bələdiyyə üzvlüyünə namizədlər Ruhin Orucov və İnsaf Qəmbərov YAP-ın seçki platforması haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, sosial infrastrukturun bərpası və yenidən qurulmasında yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin gücləndirilməsi, əhalinin layiqli məşğulluğuna, hər kəsin ixtisas, bilik və bacarığına uyğun işlə təmin olunmasına dəstək verilməsi, müxtəlif sahələri əhatə edən layihələrin icrasında yerli sakinlərin iştirakçılığının artırılması və digər hədəflər partiyanın seçki proqramında öz əksini tapıb.



Seçicilər Ziba Məmmədova, Gülşən Məsiyeva və digərləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# İnam və etimad növbəti qələbəni şərtləndirir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Salyan rayonu, Qızılağac bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov partiyanın seçki proqramı haqqında ətraflı məlumat verib. O qeyd edib ki, bütün vətəndaşların yüksək sosial rifahının təmin edilməsi prioritetinə uyğun olaraq yerlərdə resursları səfərbər etməklə iqtisadi dəyər yaradan mənbələrin hərəkətə gətirilməsi qarşıda duran başlıca vəzifələrdəndir. "Yüksək həyat standartlarını formalaşdırmaq üçün yerli özünüidarəetmə orqanlarının mövcud imkanlardan səmərəli istifadə etməsi, istehsal və xidmət sahələrinin qurulması, ailə-kəndli təsərrüfatlarının, fərdi sahibkarlığın inkişafına dəstək verməsi aktual çağırışlar sırasındadır", - deyə vurğulanıb.





Tədbirdə çıxış edən seçki qərargahının üzvləri Ağabala Ağayev, Allahverdi Piriyev, bələdiyyə üzvlüyünə namizədlər Bünyad Yolçiyev və Şakir Hüseynov xalqın Yeni Azərbaycan Partiyasına sarsılmaz inamının partiyanın növbəti qələbəsini şərtləndirdiyini vurğulayıblar. Onlar yeni nailiyyətlər üçün seçiciləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# YAP öz əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazanıb



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Sədərək rayonu, Dəmirçi bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımov çıxış edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizin Zəfər zirvəsinə yüksəldiyini və yeni inkişaf mərhələsinə qədəm qoyduğunu söyləyib. Yeni Azərbaycan Partiyasının qarşıda duran vəzifələri uğurla həyata keçirərək Azərbaycanın tərəqqisində müstəsna rol oynadığını söyləyən A.Qasımov "Şübhə yoxdur ki, xalqımız digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də Yeni Azərbaycan Partiyasına qətiyyətli dəstəyini ifadə edəcək", - deyə vurğulayıb.





Seçki qərargahının üzvü Sirac Qarayev, bələdiyyə üzvlüyünə namizədlər Məhəmməd Nəcəfov, Əli Cəlilov və Fariz Məmmədov YAP-ın seçki proqramı ilə əlaqədar məlumat veriblər. Onlar Yeni Azərbaycan Partiyasının öz əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazandığını qeyd ediblər.

Seçicilər Emin Məhərrəmov, Türkanə Vəliyeva, Çinarə Həsənova və digərləri YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Vətəndaş məmnunluğu əsas öncəlikdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qəbələ rayonu, Nic bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasofov bildirib ki, Azərbaycan öz ərazi bütövlüyü və suverenliyini bərpa edərək yeni reallıqlar yaradan qüdrətli dövlət kimi tanınır: "Bu reallıqlar fonunda hazırda ölkəmiz bütün sahələrdə inkişafa yönəlik addımları ilə diqqətdədir. Vətəndaş məmnunluğu prioritet məsələlərdəndir. Bələdiyyə institutunun inkişafı ilə əlaqədar hədəflərin reallaşdırılması isə bu baxımdan xüsusi əhəmiyyət daşıyır".



Görüşdə çıxış edən seçki qərargahının üzvləri Zahir Məmmədov, Zəki Emil, bələdiyyə üzvlüyünə namizədlər Valeriy Dallari və Vadim Quvasaari partiyanın seçki proqramı haqqında geniş məlumat verərək seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Gənclərin seçimi bəllidir!




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) Xızı rayon təşkilatının qərargahında partiyanın namizədlərinin gənc seçicilərlə görüşü keçirilib.

YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev qeyd edib ki, Azərbaycan dövləti uğurlu gənclər siyasəti həyata keçirir. Onun sözlərinə görə, Azərbaycan gəncləri cəmiyyətin bütün sahələrində layiqincə təmsil olunaraq mühüm nailiyyətlərə imza atırlar.



Milli Məclisin deputatı Müşfiq Məmmədli bildirib ki, Prezident İlham Əliyev gəncliyin inkişafına xüsusi diqqət göstərməklə Azərbaycanın parlaq gələcəyini inşa edir. "Bu siyasət mütərəqqi düşüncəli, intellektual, möhkəm əqidəli və zəngin mənəviyyatlı Azərbaycan gəncliyinin formalaşması və inkişafına hədəflənib", - deyən millət vəkili gənc seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıb.



Bələdiyyə üzvlüyünə namizədlər Əziz Məmmədov və Yaxşıxanım Qasımova YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Onlar Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olduğunu vurğulayaraq seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Yeni reallıqlar rifah və inkişaf vəd edir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Goranboy rayonu, Dəlimməmmədli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Goranboy rayon təşkilatının sədri Samir Qocayev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin qarşıda duran bir çox milli hədəflərin reallaşmasını təmin etdiyini bildirib: "Yeni reallıqlar ölkəmizə rifah, inkişaf və qələbələr vəd edir".

Ölkəmizdə növbəti bələdiyyə seçkilərinin yeni dönəmin mühüm çağırışları fonunda keçirildiyini söyləyən S.Qocayev "Xalqımız Yeni Azərbaycan Partiyasını dəstəkləyir. Bələdiyyə seçkilərinin nəticələri bu gerçəkliyin daha bir bariz nümunəsi olacaq", - deyə vurğulayıb.





Təşviqat qrupunun üzvləri Rahinə Məmmədova və Ürfət Həsənov YAP-ın seçki proqramı barədə ətraflı məlumat veriblər. Onlar Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində növbəti qələbə qazanmaq əzmində olduğunu bildirərək seçiciləri xalqımızın mənafeyi naminə partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# Bayden gedir, Tramp gəlir...

## Dünya necə dəyişəcək?

Qlobal miqyasda cərəyan edən proseslərə Amerika Birləşmiş Ştatlarının (ABŞ) bu və ya digər formada təsir göstərdiyi hər kəsə bəllidir. Bu mənada qlobal güc sayılan ABŞ-yə hansı mövqeyə və keyfiyyətlərə malik administrasiyanın rəhbərlik etməsi çox vacibdir.

İndi beynəlxalq ictimaiyyət yanvarın 20-də Ağ Evdə baş verəcək administrasiya dəyişikliyini səbirsizliklə gözləyir. Bir sıra sərgüzəştlərlə gülüş hədəfinə çevrilən, adekvat olmayan qərarlarla gündəmə gələn Bayden erası başa çatır, onu ABŞ-nin perspektiv hədəflərini açıqlayan, bütün dünya üçün yeni mesajlar verən Tramp əvəzləyəcək . Ağ Evdə administrasiya əvəzlənməsi qlobal proseslərin gələcək inkişafına, o cümlədən də Azərbaycan - ABŞ münasibətlərinə necə təsir göstərəcək?

### ABŞ-nin yeni administrasiyasına inam...

Açıq deyək ki, Bayden dönəmində Azərbaycan-ABŞ münasibətləri arzuedilən səviyyədən çox uzaq olub və bunun məsuliyyəti bütünlüklə qarşı tərəfin üzərinə düşür. Azərbaycan hər zaman ABŞ-nin ölkəmizin enerji layihələrinə verdiyi dəstəyi yüksək dəyərləndirib və əlaqələri daha da möhkəmlətməyə çalışıb. Təəssüf ki, Azərbaycandan verilən müsbət siqnallara Bayden administrasiyasından adekvat cavab gəlməyib. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində ölkəmizə münasibətdə Bayden administrasiyasının səhvlərinə diqqət çəkib. "Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, o, Amerika-Azərbaycan münasibətlərini Amerika-Ermənistan münasibətlərinin qurbanına çevirdi. Yəni, Azərbaycana Ermənistan-Azərbaycan, ya da ki, Amerika-Ermənistan münasibətlərinin prizmasından yanaşırdı və o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qaldı", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bayden administrasiyasının ölkəmizə münasibətdə ikinci səhvi Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləməsi idi. Bu, xüsusilə də keçmiş Qarabağ probleminə yanaşmada daha qabarıq şəkildə hiss olunurdu. Bu məsələdə Ağ Ev açıq-aydın ikili standartlara əsaslanan mövqe tuturdu. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev vurğulayıb: "Mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim və açıq da deyirdim, mətbuatda da, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Cavab da bəllidir ki, bu, ikili standartlardır".

Adekvat olmayan əməlləri ilə ABŞ-yə inamı sarsıtması Bayden administrasiyasının növbəti səhvidir. Götürək, elə Əfqanıstan məsələsini. Azərbaycan birinci ölkələrdən idi ki, Əfqanıstandakı missiyaya qoşulmuşdu. Əfqanıstanda bizim hərbi kontingentimiz fəaliyyət göstərirdi və oranı axırıncı tərk edənlərdən oldu. Azərbaycanın ABŞ-yə dəstəyi yalnız bununla məhdudlaşmırdı. Nəqliyyat-logistika baxımından da ölkəmizin rolu əvəzsiz idi. Bayden administrasiyasının bütün bu yaxşılıqlara cavabı isə sağlam məntiqdən, tərəfdaşlıq münasibətlərinin ruhundan çox uzaq oldu. Bunu nankorluq kimi dəyərləndirən dövlətimizin başçısı "Biz onlara lazım olana qədər 907-ci düzəliş - sanksiya qaldırılırdı, biz ki, lazım olmadıq, tətbiq etdilər. Yəni, bu nədir? Bunun bir adı var: nankorluq. Bu, nankorluqdur və hansı inamdan söhbət gedə bilər? Hansı uzunmüddətli əməkdaşlıqdan söhbət gedə bilər?", - deyə vurğulayıb.

Sorosun yüksək təltifə layiq görülməsi də Bayden administrasiyasının mahiyyətindən xəbər verir. Məlumdur ki, Sorosun vasitəçiliyi və maliyyə dəstəyi ilə bir sıra ölkələrə "rəngli inqilablar" ixrac olunub, xüsusi ssenarilər əsasında milli hökumətlər hakimiyyətdən uzaqlaşdırılıb. Yeri gəlmişkən, zamanında Azərbaycanda da belə cəhdlərə təşəbbüs göstərilib. Sorosun pərdəarxası rolda çıxış etdiyi bu ssenarilər ölkələrə yaxşı heç nə gətirməyib, onları viran qoyub. Belə bir şəxsin təltif edilməsi Bayden administrasiyasının maskasını yırtdı, təsdiqlədi ki, son beş ildə ABŞ-də Soros iqtidarı hakimiyyətdə olub. Buna görə də Bayden dönəmində Azərbaycan-ABŞ münasibətlərində heç bir irəliləyiş baş verməyib.



Azərbaycan-ABŞ münasibətlərində əsas ciddi əməkdaşlıq platforması Klinton və Corc Buş dönəmində yaradılıb və bu, Tramp dönəmində də davam edib. Yanvarın 20-dən sonra həmin platformanın daha da möhkəmlənəcəyinə böyük inam var. Azərbaycan rəhbərliyi Trampa rəğbətlə yanaşır. Prezident İlham Əliyev ötən ilin iyul ayında Şuşa Forumunda Trampa xoş münasibətini açıq şəkildə ifadə etmişdi - onda hələ heç kəs Trampın ABŞ-nin yeni prezidenti olacağını bilmirdi. Ölkələrimiz arasında münasibətlərin yaxşı perspektivlə inkişaf edəcəyinə böyük ümidlər var. "Öz açıqlamaları ilə cənab Tramp çox aydın, açıq mesajlar göndərir. İndi bunların bəlkə də hamısını təhlil etmək mümkün deyil. Amma deyə bilərəm ki, onların böyük əksəriyyətini Azərbaycan ictimaiyyəti bölüşür. Yəni, ona görə ümidlər böyükdür. Ona görə mən dedim ki, ümidlər var, ümidlər böyükdür. O cümlədən Amerika-Azərbaycan strateji əlaqələrinə yaxınlaşmaq da mümkün olacaq. Mən hesab edirəm ki, əgər hər iki tərəf maraqlı olsa, biz Amerika-Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldıra bilərik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Müharibələrə "yox" deyən Tramp

O qənaəti ifadə etmək mümkündür ki, Bayden administrasiyası ABŞ-nin güc mərkəzi rolunu və məsuliyyətini lazımınca dəyərləndirməyib və yaxud öz imkanlarından istifadə etməklə ayrı-ayrı regionlarda proseslərin inkişafını arzuedilən məcraya yönətməyə çalışmayıb, ilk növbədə böyük dövlət mövqeyindən, imperialist maraqlardan, ədalətsiz yanaşmalardan çıxış edib. Qısa şəkildə desək, Bayden administarsiyası ABŞ-yə "müharibə dövləti" imici qazandırıb. Bu fikrin təsdiqi olaraq bildirək ki, elə bu günlərdə Tramp Rusiya-Ukrayna müharibəsinin başlamasında sələfinin məsuliyyətindən danışıb. Bayden administarsiyası yalnız Şərqi Avropada deyil, dünyanın digər regionlarında da qanlı müharibələrin alovlanmasında katalizator rolunda çıxış edib.

Tramp isə hələ seçkiqabağı dönəmdə təbliğat kampaniyasını "müharibələrin dayandırılmasının zəruriliyi" tezisi üzərində qurmuşdu. Qalib gəldikdən sonra da eyni məzmunlu bəyanatlarla çıxış edir. Tramp xüsusilə də Rusiya-Ukrayna müharibəsinin dayandırılmasında israrlı görünür. Düzdür, o hələ üç ildir ki, davam edən müharibənin hansı şərtlər altında dayandıracağını bəyan etməyib. Ancaq bütövlükdə Trampın müharibələrin dayandırılması ritorikasından çıxış etməsi alqışalayiqdir. Bu, dünya üçün bir çağırışdır.

Bəhs olunan müsahibəsində Prezident İlham Əliyev qloballaşma prosesinə də münasibətini ifadə edib. Qloballaşmanın əsas hədəfi gənc nəsil və milli dəyərlərdir. Bu yanaşma gəncləri bir növ dünya sakinlərinə çevirmək, onları mədəniyyəti, milli mənsubiyyəti, milli özünəməxsusluğu, ləyaqəti olmayan insanlara döndərmək, əlində pult olanların sanki robotuna çevirmək üçün hesablanıb. Yaxşı haldır ki, tendensiya son illərdə müəyyən qədər səngiyib. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz buna hər zaman qarşı çıxmışıq və hətta qloballaşma Qərbin siyasətində əsas tendensiya sayıldığı vaxtlarda aydın şəkildə çıxış etmişik.

*Mübariz FEYİZLİ*

# Buraxılış imtahanları...

## Tarix bəlli oldu

*Yeganə BAYRAMOVA*

Artıq bir neçə ildir ali məktəblərə qəbul 2 mərhələdə, buraxılış və ixtisaslar üzrə qrup fənlərindən təşkil edilən imtahan vasitəsilə aparılır. Buraxılış imtahanları dərs ili bitməmiş, yəni mart və aprel ayında keçirilir. Dövlət İmtahan Mərkəzinin (DİM) məlumatına görə, 2025-ci ildə də buraxılış imtahanları mart və aprel ayında keçiriləcək.

Belə ki, tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı iki zona olmaqla martın 2-də və 9-da keçiriləcək. Dövlət İmtahan Mərkəzindən bildirilib ki, ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı isə 3 zona üzrə aprelin 13-də, 20-də və 27-də təşkil olunacaq. İmtahandan 1 ay öncə zonalara aid olan şəhər və rayonlar haqqında məlumat paylaşılacaq.

### Ekspert: Attestatlar obyektiv qiymətlər əsasında təqdim olunmalıdır

### Eksternat qaydada imtahan keçiriləcək

Əvvəlki illərdə ümumi təhsil müəssisələrini ümumi orta (IX) və tam orta (XI) təhsil səviyyələri üzrə başa vura bilməyən şəxslər üçün eksternat qaydada keçiriləcək imtahanlara sənəd qəbulu artıq yekunlaşıb. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, cari ildə 6 minə yaxın vətəndaş imtahanda iştirak etmək üçün müraciət edib.



İmtahan yerli təhsili idarəetmə orqanları tərəfindən yanvarın 26-sı saat 11:00-da respublika üzrə 15 imtahan mərkəzində təşkil olunacaq. Qeyd edək ki, sərbəst (eksternat) təhsilalma formasının tətbiqi müxtəlif səbəblərdən ümumi orta və ya tam orta təhsil səviyyəsini başa vura bilməmiş şəxslərə bu səviyyələr üzrə buraxılış imtahanı verib müvafiq təhsil sənədi almaq üçün şərait yaratmaq məqsədi daşıyır.

### İmtahanların tez keçirilməsi tədrisə necə təsir edir?

Abituriyentlərin dərs ili bitməmiş buraxılış imtahanını verməsi birmənalı qarşılanmır. Bəziləri hesab edir ki, artıq imtahandan sonra şagirdin dərs ilinin sonunadək məktəbə getməsinə ehtiyac qalmır.

Mövzuyla bağlı "Yeni Azərbaycan"a danışan təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, cavabların daha tez çıxması baxımından imtahanların tez keçirilməsi məqsədəuyğundur: "2019-cu ildən etibarən imtahanlar yeni imtahan modelində, kurikulum əsasında keçirilir. Həmin imtahanlarda açıq tipli suallar var və həmin sualların yoxlanılması da zaman tələb edir. Bu təcrübə təkcə bizdə tətbiq olunmayıb. Dünyanın əksər inkişaf etmiş ölkələrində imtahanların hətta oktyabr, noyabr ayında keçirilməsi təcrübəsi var.

Dövlət İmtahan Mərkəzi buraxılış imtahanları ilə bağlı məlumatı yeni tədris ilinin başlanğıcında elan edir. Abituriyentlər həmin proqrama uyğun həmin mövzular əsasında hazırlaşırlar. Burda da keçirilməyən mövzu olursa, oradan suallar salınmır".

### 3 fəndən imtahan vermək kifayətdir

Ekspert hesab edir ki, imtahanın tez təşkili abituriyentlərin digər imtahana çox vaxt ayırmasına müsbət təsir edir: "Buraxılış imtahanında abituriyentlər artıq ixtisas qrupu ilə bağlı 3 fəndən imtahan verib, növbəti blok imtahanına, qəbulun ikinci mərhələsinə hazırlaşırlar. Yəni artıq digər 3 fənnə köklənirlər. Bilirsiniz ki, imtahan nəticələrinin açıqlanması 3-4 həftə vaxt aparır. Demək olar ki, bir ay ərzində elan olunur. Belə olmamaq üçün fənlərin sayı minimallaşdırılsa, yaxşı olar. Yəni 6-7 yox, konkret olaraq 3 fəndən imtahan verib, onun əsasında nəticələr müəyyənləşsin. İmtahan nəticələrinin emalı da bir həftə, maksimum 10 gün çəkə bilər".

E.Əfəndi şagirdlərin dərsdən yayınma məsələsinə də münasibət bildirib: "Bu məsələdə də DİM deyil, Elm və Təhsil Nazirliyi daha çox qınanmalıdır. Çünki mövcud qaydalar əsasında attestatın verilməsi məsələsi var. Təhsil haqqında qanunda göstərilir ki, bir neçə fəndən şagird iki qiymət alırsa, o zaman da attestat verilir.

Əgər şagirdlərin dərsə davamiyyətinin qaydasında olmasını istəyiriksə, çalışmalıyıq ki, həmin qanunvericilikdəki müddəa oradan çıxarılsın. Yəni şagirdlərə formal xarakterli yox, obyektiv qiymətlər əsasında attestatlar təqdim olunsun. Əgər həqiqətən də şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi doğru deyilsə, ona attestat təqdim olunmasın. Belə olan halda proses pozulmaz".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti üzrə hazırlanmışdır

# Avropa Parlamenti yeni yalanlara əl atır

## Leksmanın əsassız iddiaları onların əsl simasını ortaya qoyur

Azərbaycanın son 4 ildə Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqlar mühüm çağırışlara əsaslanır. Təsadüfi deyil ki, bölgənin siyasi və iqtisadi təhlükəsizliyinin təminində aparıcı rol oynayan Bakı ümumən Cənubi Qafqazın yeni regional aktor kimi önə çıxmasını şərtləndirib - bunun üçün isə davamlı sülh və sabitlik ən mühüm amil kimi önə çəkilir. Məhz Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan sülh prosesi mühüm bir coğrafiyada təhlükəsizlik arxitekturasının qurulmasında əsaslı rol oynayır.

Bu isə təbii olaraq regionla bağlı məkrli planları olan bəzi “beynəlxalq oyunçuların” mövqeləri ilə uzlaşmır. Ermənistan üzərindən regiona müdaxilə cəhdləri boşa çıxan həmin güc mərkəzləri gələcək perspektivdə bütünlüklə prosesdən kənarlaşdırılmamaq üçün yenə də yeganə “saman çöpləri”ni buraxmaq istəmirlər. Onlar Ermənistanı “müdafiə etmək” bəhanəsi ilə Azərbaycana qarşı qərəzli hücumlar formalaşdırmağa çalışırlar. Bu cəhdlər isə hər zaman olduğu kimi, “daşa dəyir”...

### Azərbaycana qarşı aparılan çirkin kampaniyalar bir mərkəzdən “qidalanır”...

### Növbəti qərəz, növbəti yalan...

Bəli, bu istiqamətdə növbəti cəhd ermənipərəst qərarları ilə tanınan Avropa Parlamentindən gəldi. Hər zaman Azərbaycanofob, türkofob və islamofob mövqeyə malik olan və bunu gizlətməyən AP yenə də Fransanın kölgəsindən Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Erməni lobbisinin ən yaxın “çevrəsi” sayılan Avroparlament bu dəfə də heç kimi təəccübləndirməyib - onlar erməni kartı üzərindən min bir yalan və hədyanlarla bölgənin yeni inkişaf perspektivinə qarşı kampaniyalar aparırlar.

Bu dəfə “önə çıxarılan” sima da tanışdır - Avroparlamentin Ermənistan üzrə daimi məruzəçisi Miriam Leksmann. Leksmanın siyasi kimliyi haqda geniş məlumat verməyə ehtiyac olmasa da, bu deputat ermənipərəst davranışları, ayrı-ayrı ölkələrin daxili işlərinə qarışması kimi məziyyətləri ilə tanınsa da, bəzi ştrixlərə yenidən nəzər yetirmək lazımdır. Əvvəlcə qeyd edək ki, Leksmann növbəti dəfə Azərbaycanın ünvanına hədyanlar və böhtan dolu fikirlər deyib - bildirib ki, rəsmi Bakı regional sülh və təhlükəsizliyə mane olan bəyanatlar səsləndirir. “Hədələr səsləndirmək deyil, mürəkkəb, səmimi diplomatiya zamanıdır”, - o vurğulayıb. Beləliklə, AP-nin “məruzəçisi” növbəti dəfə təmsil etdiyi qurumun iç üzünü ortaya qoyub. Həqiqət budur ki, Azərbaycan heç bir zaman heç bir ölkəyə qarşı hər hansı bir hədə səsləndirməyib - hətta ölkəmiz işğala məruz qaldığı illərdə belə hər zaman prosesin sülh danışıqları yolu ilə, konstruktiv şəkildə inkişaf etməsinin tərəfdarı kimi çıxış edib. Təəssüf ki, Azərbaycanın bu sülhpərvər mövqeyi nə Ermənistan, nə “münaqişə” ilə bağlı birbaşa vasitəçi qismdə iştirak edən tərəflər, nə də özünü “insan hüquq və azadlıqlarının keşikçisi” elan etmiş beynəlxalq qurumlar, o cümlədən də Avropa Parlamenti tərəfindən lazımınca qiymətləndirilmədi. Və Azərbaycan nəhayətində beynəlxalq hüquq müstəvisində özünün ərazi bütövlüyünü, suverenliyini təmin etdi. Bu gün isə ölkəmiz bölgədə əbədi sülhün formalaşması uğrunda mübarizə aparır. Leksmann kimi erməni marağına kölə olanlar, lobbi puluna əyilənlər isə Cənubi Qafqazda davamlı sabitliyin formalaşmasından qorxanlardır...



### Gürcüstanın daxili işlərinə qarışır...

Vurğulandığı kimi, Leksmann özünün siyasi karyerasında hər zaman lokal maraqların təmsilçisi kimi çıxış edib. Çox uzağa getməyək - destruktiv fəaliyyəti ilə tanınan deputat bundan əvvəl Gürcüstanın daxili işlərinə qarışması ilə yadda qalmışdı. Artıq bir neçə ildir ki, Gürcüstanı hədəfə alan Leksmann bu ölkənin apardığı siyasəti hədəfə alır, hətta onu təftiş etməyə cəhd göstərir - bu isə onu nümayiş etdirir ki, Leksmann adi siyasi davranış qaydalarından belə bixəbərdir. Və ya qəsdən bu dövlətin daxili işlərinə əl uzatmağa çalışır.

Xatırlasaq, rəsmi Tbilisi də Leksmann və digərlərini ölkənin daxili işlərinə qarışmaqda ittiham etmişdi. Ölkə parlamentinin sədri Şalva Papuaşvili bildirmişdi ki, bəzi xarici deputatlar özləri xarici müdaxilədən şikayət edir, lakin məmnuniyyətlə digər ölkələrin daxili işlərinə qarışırlar.

### Metsolanın qəyyumluğu ilə ulduzu parlayan...

Leksmanın siyasi obrazı elə mövqeyi kimi “rəngarəngdir”. Onun erməni lobbisinə yaxınlığının mənbəyini araşdıran zaman bir çox maraqlı nüanslara şahid olursan. Məsələn, 2024-cü il seçkilərindən sonra Leksmann Avropa Parlamentinin kvestoru olub. O, prezident Roberta Metsola dövründə parlamentin rəhbərliyinin bir hissəsinə çevriib. Maraqlı məqamlardan biri məhz budur - Avroparlamentin “sevimli məruzəçilərindən” birinə çevrilən Leksmanın ulduzu məhz Metsolanın rəhbərliyə gəlməsi ilə parlayıb. Metsolanın Avropa Parlamentinin vitse-prezidenti seçilməsi ilə Leksmanın andiçmə tarixləri üst-üstə düşür. Metsolanın siyasi kimliyi haqda geniş məlumatı isə elə Avropa mətbuatından oxumaq mümkündür. Məsələn, Almaniya mətbuatı 2023-cü ilin əvvəlində yazmışdı ki, AP rəsmisi olan Roberta Metsola əri ilə birlikdə Fransanın təmtəraqlı otelində keçirdiyi gecənin xərcinin Şərab İstehsalçıları Assosiasiyası tərəfindən ödənilməsi haqda məlumat verməyib. Bu barədə söz-söhbət çox olsa da, qəribədir ki, nəticədə spikerə heç bir sanksiya tətbiq edilmədi.

Bu ilin sentyabrında isə “Politico” nəşri Roberta Metsolanın həyat yoldaşı Ukko Metsolanın dünyanın ikinci ən böyük kruiz gəmi şirkəti olan “Royal Caribean” qrupunun əsas Avropa lobbiçisi olduğunu yazıb. “Politico” bildirib ki, avropalı deputatlar onun Avropa Parlamentinin sədri olan arvadının nüfuzundan istifadə edərək, şirkətinin ekoloji keçidini maliyyələşdirmək üçün Avropa fondlarından istifadə etməyə çalışdığını deyirlər.

Bundan başqa Metsolanın adı “Qatargate” prosesində də ən “fəal” çəkilənlərdən olub. Leksmanın da məhz belə bir komandanın “aparıcı” üzvü olması, Metsola tərəfindən “qəyyumluğa” götürülməsi artıq şərhə ehtiyac qoymur...



### Makkeynin “tələbəsi”...

Leksmanla bağlı başqa bir maraqlı məqam isə onun siyasi karyerasının başlanğıcıdır. Belə ki, Leksmann universiteti bitirdikdən sonra Beynəlxalq Respublika İnstitutunda (IRI) işləyib. Onun təmsil olunduğu sahə də “maraq” kəsb edir - Leksmann dezinformasiyanın ictimai rəyə təsiri ilə bağlı olan departamentdə çalışıb. Görünür, hazırda yaymağa çalışdığı dezinformasiyaların planı da elə həmin illərdən çəkilib. Çünki IRI-nın Azərbaycana qarşı mövqeyi bəllidir. 2008-ci ildən bu təşkilata ermənipərəst mövqeyi ilə tanınan Con Makkeyn rəhbərlik edir. Bu həmin Makkeyndir ki, ölkəmizə qarşı edilən ən böyük haqsızlıqlardan birinin müəllfidir. 1992-ci ildə Azərbaycana qarşı tətbiq edilən “907” nömrəli düzəliş məhz Makkeyn tərəfindən irəli sürülüb. Görünür, Leksmanın siyasi karyerasının birinci mərhələsindəcə belə bir qurumda fəaliyyətə başlaması onun bütün gələcəyinə siraət edib.

Beləliklə, ölkəmizə qarşı aparılan bu kimi çirkin kampaniyaların məhz bir əldən idarə olunması növbəti dəfə təsdiqlənir. Avropa İttifaqı bu və ya digər şəkildə Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə daxil olmaq üçün yollar axtarır - görünür, Ermənistandakı “missiya”nın işə yaramadığı həqiqəti artıq onların özləri tərəfindən də etiraf olunur. Belə olmasaydı, ən primitiv üsullara əl atmazdılar...

***P.İSMAYILOV***

# Ermənistan üçün saziş, Cənubi Qafqaz üçün təhdid...

## Strateji sazişin detalları heç bir halda Ermənistanın dövlət təhlükəsizliyinə zəmanət vermir

2023-cü il antiterror tədbirlərindən sonra Qərbin, xüsusilə də Bayden administrasiyasının Cənubi Qafqazla bağlı planlarında “məcburi yeniləmələr” edildi. Artıq Bayden administrasiyası maskasını çıxarmaq, əsl simasını göstəmək məcburiyyətində idi. Son bir il ərzində Bayden administrasiyası bu və ya digər şəkildə, açıq və ya gizli Ermənistanı dəstəkləməklə məşğuldur. Hətta müəyyən yollarla danışıqlar prosesinə mane olmağa çalışan, sülhyaratma işini qeyri-müəyyən müddətə təxirə salmaq üçün səy göstərən ABŞ-ın keçmiş hakimiyyəti nəticə etibarı ilə heç nə əldə edə bilmədi - əksinə, Ermənistan ilə Azərbaycan arasında ikitərəfli təmaslar nəticəsində əldə olunan uğurlar, 13 kilometrə yaxın ərazinin demarakasiya və delimitasiyasının aparılması, işğal altında olan 4 kəndin Ermənistan tərəfindən qaytarılmasından sonra Bayden hakimiyyəti daha fərqli yol seçdi. Artıq Ermənistan gizli yox, açıq şəkildə dəstəkləmir və müdafiə olunurdu. Bunun bariz sübutu isə Brüsseldə üçtərəfli ABŞ - Aİ - Ermənistan görüşünün keçirilməsi və bu kontekstdə müvafiq sənədin imzalanması oldu. Düzdür, Bayden administrasiyası bu sənəddə hərbi əməkdaşlıqla bağlı hər hansı bir müddəanın olmadığını bildirsə də, əsl həqiqətdə bu üçtərəfli sənədin məhz Azərbaycana qarşı imzalandığı ortadadır. Bu isə, sülhə qarşı açıq təhdiddir.

### Sənəd hazırda müxtəlif adlar altında Ermənistana yerləşdirilən ABŞ hərbçilərinin hüquqi statusunu müəyyənləşdirmək üçün imzalanır

### ABŞ ilə Ermənistan saziş imzalayır...

Bayden administrasiyasının sonuncu prezident seçkilərində uğradığı acı məğlubiyyət onları daha da radikallaşdırıb - bu administrasiya hətta öz ölkəsinin maraqlarını belə zərbə altına qoymağa hazırdır. Qarşıdakı illərdə Tramp administrasiyasının başını məhz qoyduqları bu kimi qeyri-real “miras”larla qarışdırmaq istəyən Bayden administrasiyası səslənən yolda növbəti addımını atır. Dünən axşam imzalanması nəzərdə tutulan “strateji tərəfdaşlıq” sənədi ABŞ-ın köhnə rəhbərliyinin buraxdığı siyasi səhvlərdən birinə çevrilir. Xatırladaq ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan və ABŞ Dövlət katibi Antoni Blinkenin yanvarın 14-ü axşam Vaşinqtonda strateji tərəfdaşlıq sənədini imzalayacaqları bildirilmişdi. Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan bununla bağlı sosial şəbəkələrdə yazmışdı.

### Mirzoyan Moskvaya çağırıldı...

Məsələyə Rusiyanın münasibəti də fərqli olub. Belə ki, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, ABŞ Cənubi Qafqazda sabitləşdirici rol oynamayıb. Rusiya Ermənistanla bütün istiqamətlərdə əməkdaşlığı davam etdirməyə hazırdır. “Birləşmiş Ştatlar Cənubi Qafqazda heç vaxt xüsusi sabitləşdirici rol oynamayıb, hətta bunun əksini demək olar. Bu fəaliyyətlər kontekstində ABŞ daim yeni ölkələri öz arxasınca çəkməyə çalışır”, - o bildirib. Bununla yanaşı, Peskov qeyd edib ki, Ermənistanın başqa ölkələrlə münasibətləri inkişaf etdirmək üçün suveren hüququ var.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov dünən keçirdiyi illik mətbuat konfransında rəsmi İrəvanın qərbyönümlü siyasət yürütməsinə, eləcə də Ermənistanın ABŞ ilə strateji tərəfdaşlıq haqqında müqavilə imzalayacağına münasibət bildirərkən deyib ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Moskvaya səfərə dəvət olunub. Rusiya xarici işlər naziri Ermənistanla dialoqun davam etdiyini əlavə edib. Qeyd edib ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Moskvaya səfərə dəvət olunub. “O, dəvəti qəbul edib. Biz onun səfərini gözləyirik”, - Lavrov qeyd edib.

### 5 aprelin davamı...

Bəzi siyasi şərhçilər bu sənədi “5 aprel” görüşünün uğursuz davamı adlandırır. Xüsusilə, Bayden hakimiyyətinin başa çatmasına cəmisi bir neçə gün qalmış belə bir addım atması bunu deməyə əsas verir. İlk növbədə diqqət yetirilməlidir ki, sənəd özünün açıqlamalarında yeni siyasi kursa üstünlük verəcəyini bildirən Donald Tramp üçün hazırlanmış bir kompromat xarakteri daşıya bilər. Bəlli olduğu kimi, Trampın siyasi hədəfləri tam fərqli məcrada inkişaf edir - burada siyasi intriqalar deyil, iqtisadi əməkdaşlıqlar, qarşılıqlı maraqlara söykənən tərəfdaşlıqlar əsas şərt kimi götürülür. Belə olan halda, dövlət katibi Blinkenin tələsik İrəvana “strateji tərəfdaş” donu biçmək istəməsi qarşıdakı dövrdə Vaşinqtonun Cənubi Qafqaz siyasətinə əl uzatmaq cəhdidir.



### Yeganə Hacıyeva: ABŞ bu tipli strateji tərəfdaşlıq sazişini 2009-cu ildə Gürcüstanla da imzalamışdı

Məsələ ilə bağlı fikirlərini bölüşən politoloq Yeganə Hacıyeva bildirib ki, ABŞ ilə Ermənistan arasında strateji sazişin detalları hələ 2024-cü ilin iyun ayında razılaşdırılmışdı: “Bu deyildiyi kimi o qədər də tələsik hazırlanmış bir sənəd deyil. Bu saziş ABŞ ilə Ermənistan arasındakı strateji tərəfdaşlıq dialoqunun yekun mərhələsi kimi Vaşinqtonun xarici siyasətində tərəfdaş ölkələrə tətbiq etdiyi adi praktikadır. Burada “xüsusi dəstəklənmə” kimi nüans yoxdur. Yəni, bu saziş Ermənistanın ABŞ tərəfindən xüsusi dəstəyini ifadə etmir. Nəzərə alaq ki, ABŞ Cənubi Qafqazda bundan öncə də analoji bir sənəd imzalayıb və bu strateji tərəfdaşlıq sazişi 2009-cu ildə Gürcüstanla imzalanıb. Bu gün Gürcüstanla ABŞ arasında münasibətlər göz önündədir”.

Y.Hacıyeva qeyd edib ki, məsələnin detalları çoxşaxəlidir. Belə ki, ABŞ ilə Ermənistan arasındakı saziş Vaşinqtonun xarici siyasətinin təhlükəsizlik aspektlərinin ən yüksək pilləsini təşkil etmir. Başqa sözlə, bu adi sazişdir və müttəfiqlik demək deyil. “Bu sazişi ABŞ-İsrail, ABŞ-Böyük Britaniya münasibətləri səviyəsində izah etmək düzgün deyil. Bu saziş tərəfdaşlıq dialoqunun yekun mərhələsi kimi imzalanan bir sənəddir. İsrail və Böyük Britaniya ilə imzalanan isə ABŞ-ın strateji müttəfiqi olmaqla bağlı sazişdir. Bunlar fərqlidir. Strateji sazişin detalları heç bir halda Ermənistanın dövlət təhlükəsizliyinə zəmanət vermir. Sənəd həlledici məqamlarda silah satışı, silahla təmin etmək kimi detalları özündə ehtiva etmir. Amma bu saziş ABŞ-ın hərbi qruplarının Ermənistan ərazisində müxtəlif adlar altında yerləşdirilməsi üçün hüquqi əsas verir. Fikrimcə, saziş hazırda müxtəlif adlar altında Ermənistana yerləşdirilən ABŞ hərbçilərinin hüquqi statusunu müəyyənləşdirmək üçün imzalanır. Narahatedici məqamlardan biri sənəddə əksini tapan axırıncı bənddir. Bu, ABŞ-ın Ermənistanla enerji dayanıqlılığının təmin olunması üçün nüvə sənayesindəki əməkdaşlığı məsələsidir. Bu məsələ də ABŞ-da müxtəlif dövrlərdə müxtəlif səviyyələrdə, hətta Ermənistandakı səfirlik səviyyəsində dilə gətirilib. Ermənistanın ərazisində kiçik atom stansiyalarının yerləşdirilməsi bu ölkənin enerji dayanıqlığının dəstəklənməsi kimi dəyərləndirilir. Strateji sazişdə bir bənd də buna aiddir”, - deyən Y.Hacıyeva əlavə edib ki, sənəd bütün beynəlxalq sənədlər kimi ratifikasiya olunmalıdır və prezident tərəfindən imzalanmalıdır. Amma ortada nonsens var: “Ermənistan həm Rusiyanın strateji tərəfdaşıdır - ərazisində Rusiyanın 102-ci hərbi bazası yerləşir, həm də ABŞ ilə strateji tərəfdaşlıq imzalayır, Aİ ilə strateji tərəfdaşlıq etməyə çalışır. Bu, nonsesdir. Bu qədər qlobal konfrantasiyada olan ölkələrin bir ölkəni özünə qeyd-şərtsiz tərəfdaş seçməsi özü maraqlıdır. Məsələn, bu haqq Gürcüstana tanınmadı. Ermənistan Rusiyaya yaxın ola bilər, amma Gürcüstan üçün bu haqq tanınmır. Məhz bu amil ona irad tutuldu və parlament seçkilərindən sonra 2009-cu ildə imzalanan tərəfdaşlıq sənədi ləğv edildi”.

***P.SADAYOĞLU***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# 24 yaşlı “Vikipediya”...

## Axtarış üçün üz tutduğumuz ilk ünvan!

Dinamik, sürətlə inkişaf edən yüksək texnologiyalar əsrində yaşayırıq. Hazırda bütün dünyada informasiyaların əldə olunması üçün müxtəlif vasitələrdən istifadə etmək insanların həyat tərzinə çevrilib. Həmin vasitələrdən biri, hətta ən önəmlisi “Vikipediya” adlı elektron ensiklopediyadır.
Vaxtaşırı burada olan məlumatdan yararlanırıq. Bəllidir ki, bu gün internet üzərində hər hansı bir məlumat axtaran zaman ilk müraciət etdiyimiz ünvan məhz “Vikipediya”dır.

Qeyd edək ki, layihənin tarixi 1999-cu ildən başlayır. Layihənin baş redaktoru, təşkilatçısı Larri Senqer və “Bomis” kompaniyasının icraçı direktoru, layihəni maliyyələşdirən Cimmi Uels viki texnologiyası əsasında onlayn ensiklopediya yaratmaq qərarına gələrək onu Nupediya (NuPedia.com) adlandırdılar.

Nupediya virtual ensiklopediyası 2000-ci ilin mart ayından fəaliyyətə başlayıb. İngilis dilində yaradılmış bu ensiklopediyanı viki-sayt hesab etmək olmazdı. Onun əsasını alim və mütəxəssislər tərəfindən məqalələrin dəqiq yoxlanması təşkil edirdi. Nupediyaya məqalələrin daxil olunması prosesi çox ləng getdiyindən onun bağlanması haqqında qərar qəbul edildi və 2003-cü ilin sentyabrında bağlandı. Nupediya ensiklopediyası bağlanarkən orada 25 tamamlanmış, 74 yoxlama prosesində olan məqalə var idi.

Nupediya ensiklopediyası əsasında yaradılmış “Vikipediya” açıq ensiklopediyası 2001-ci il yanvarın 15-də internetdə fəaliyyət göstərməyə başlayıb. Qısa müddət ərzində isə internetin ən populyar layihələrindən birinə çevrilib. Nupediyadan fərqli olaraq “Vikipediya”da məqalələr könüllü internet istifadəçiləri tərəfindən yoxlanılır ki, bu da ensiklopediyanın çox sürətlə zənginləşməsinə səbəb olub. Ensiklopediyanın adı ingilis texniki termini olan “wiki” (saytın fəaliyyətinin əsasını təşkil edən texnologiya; söz özü havay dilində “tez” deməkdir) və “encyclopedia” (ensiklopediya) sözlərindən yaranıb.

2002-ci il yanvarın 13-də isə “Vikipediya”nın Azərbaycan dilində bölməsi yaranıb. Geridə qalan illər ərzində Azərbaycan dilində “Vikipediya” xeyli inkişaf edərək ölkəmizdə ən çox oxunan onlayn ensiklopediya olaraq öz yerini alıb. Son statistikalar da bunun bariz nümunəsidir. Son illər “Vikipediya”nın Azərbaycan dilində olan səhifələri 34 milyon dəfə ziyarət edilib, son bir il ərzində isə bu rəqəm 358 milyondur.

Bu gün “Vikipediya” ən çox daxil olunan saytlar arasında yüksək yerlərdə qərarlaşır. Belə ki, alexa.com-un açıqladığı statistikaya əsasən, dünyada və ölkəmizdə ən çox daxil olunan 5-ci saytdır. Bu amil “Vikipediya”nın insanlar arasındakı vacibliyinin və əhəmiyyətinin göstəricisidir.

Yeri gəlmişkən, yanvarın 15-i Beynəlxalq Vikipediya Günü kimi qeyd edilir. Bu il “Vikipediya”nın yaradılmasının 24 ili tamam olur.

Şagirddən müəllimə, böyükdən kiçiyə, mübahisə edənlər, dünya görüşünü genişləndirənlər, qısacası hər kəs bu “çeşmə”dən az-çox su içir. “Vikipediya” internetdə azad şəkildə yayımlanan, dünyanın bir çox dillərində viki texnologiyasının tətbiqi ilə könüllü istifadəçilər tərəfindən inkişaf etdirilən ensiklopediyadır. Azad dedikdə, “Vikipediya”dakı məlumatların oxunmasının və istifadəsinin azadlığı ilə yanaşı, orada redaktə etməyin azadlığı da nəzərdə tutulur.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü
**ŞƏMSƏDDİN XANBABAYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**İdman**

## Azərbaycan-Kosovo görüşünü idarə edəcək hakimlər açıqlanıb

19 yaşadək futzalçılardan ibarət Azərbaycan millisinin Avropa çempionatının ilkin mərhələsində Kosovo ilə keçirəcəyi oyuna təyinatlar açıqlanıb.

Bu barədə Azərbaycan Futzal Federasiyasından AZƏRTAC-a məlumat verilib. Qarşılaşmanı Çexiya, Macarıstan və Belçikadan olan hakimlər idarə edəcəklər:

Hakimlər: Radim Cep (Çexiya), Adam Çzene-Joo (Macarıstan), Jiri Berqs (Belçika)

Hakim-inspektor: Stefan Veber (Almaniya)

Timekeeper: Laurentiu İlie (San-Marino)

Qeyd edək ki, yanvarın 25-də keçiriləcək Azərbaycan-Kosovo görüşü Serravalledə yerləşən “Multievent Sport Domus” arenasında reallaşacaq. Matç saat 21:00-da başlayacaq.

## Dünya çempionu Tarverdi Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr olunmuş ənənəvi kütləvi qaçış




Bakının Böyükşor bulvarında veteran idmançılar arasında ikiqat Avropa və dünya çempionu Tarverdi Əliyevin anadan olmasının 86-cı ildönümünə həsr olunmuş ənənəvi 12 kilometr məsafəyə yürüş keçirilib. 160 nəfərin iştirak etdiyi yürüş Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və “Zəfər” qaçış klubunun təşkilatçılığı ilə baş tutub. Baş direktorun müavini Valid Hüseynovun rəhbərlik etdiyi “Financial Chain Corporation”nın nümayəndələri yarışda iştirak edərək öz çıxışları ilə fərqləniblər. Ümumi kateqoriya üzrə ilk 3 yeri tutan qadın və kişi idmançılara, 40+, 50, 60+ yaş qrupları üzrə idman ustaları kateqoriyasında ilk 3 yeri tutan idmançılara sponsorlar tərəfindən mükafatlar və hədiyyələr təqdim edilib. Bütün finişə çatan idmançılar yarışın simvolu olan medalla təltif olunublar.

Qeyd edək ki, dünyada 15 filialı olan tanınmış konsaltinq şirkəti olan “FCHAIN Corporation” keyfiyyətli konsaltinq xidmətləri həyata keçirir. Əsas fəaliyyətindən əlavə, şirkət idmanın inkişafına xüsusi diqqət yetirməklə müxtəlif sosial təşəbbüslərdə fəal iştirak edir. FCHAIN, həmçinin “Pro Sport” Gimnastika Klubunun və gənc istedadlı gimnast Züleyxa Şabanovanın rəsmi sponsorudur.

## Federasiya rəsmisi idmançılarımızın Dünya Kubokundakı çıxışını dəyərləndirib

Qış İdman Növləri Federasiyasının baş katibi Günel Bədəlova Azərbaycan idmançılarının “Şahdağ”da keçirilən xizək alpinizmi üzrə Dünya Kubokundakı çıxışını dəyərləndirib.

O, “Report”a açıqlamasında yarışda uğurlu nəticə qazanılmamasını idmançıların təcrübəsiz olması ilə izah edib. Federasiya rəsmisi turnirə qatılan Azərbaycan təmsilçilərinin sıfırdan başladıqlarını vurğulayıb:

“Bu idman növünə cəmi iki ildir başlamışıq. Həmçinin idmançılarımız da yenidirlər. Milli azərbaycanlılardan ibarətdir. Komandaya əlavə idmançılar da cəlb edirik. Hər biri, demək olar ki, sıfırdan başlayıb. Bu idman növü ilə 20-25 il məşğul olan idmançılarla yarışmaq belə onlar üçün böyük nailiyyətdir. Məsələn, Seyid Sədrəddinov vertikal yarışda vaxt baxımından daha yaxşı nəticə göstərdi. Hər bir idman növünün inkişafı üçün vaxt tələb olunur”.

O, idmançılardan yüksək nəticə gözləmədiklərini söyləyib: “İdmançılarımız Andorrada keçiriləcək təlim-məşq toplanışına hazırlaşırlar. Başqa yarışlara da qatılacaqlar. Təbii ki, uşaqlardan yüksək nəticə gözləyə bilməzdik. Digər tərəfdən, öz evində yarışanda həyəcan daha çox olur. Çünki məsuliyyət və hər kəsin səndən gözləntiləri böyükdür. Buna baxmayaraq, uşaqlar öz üzərlərində çalışırlar və daha yaxşı nəticələr qazanacaqlarına inanırıq”.

G.Bədəlova komandaya yeni idmançıların cəlb olunması ilə bağlı seçimlərin davam etdiyini nəzərə çatdırıb: “Hər il sentyabrda seçimlər aparırıq. Bundan əlavə, yayda “Şahdağ”da qaçış yarışları təşkil edirik. Qalib gələn uşaqları seçirik. Qusarla yanaşı, Qəbələdə də təlim-məşq toplanışı təşkil etməyi və bu rayonda da bu idman növünün inkişafı üçün təməl qoymağı planlaşdırırıq. Seçim turları davam edir. Hazırda iki - A və B komandamız var. B komandası bu il seçilmiş uşaqlardan ibarətdir. Yeni komandadır, üç nəfərdən ibarətdir. Amma yeni idmançıların cəlb olunması istiqamətində axtarışdayıq”.




Qeyd edək ki, xizək alpinizmi üzrə Dünya Kuboku yanvarın 10-13-ü aralığında “Şahdağ” Turizm Mərkəzində keçirilib. Yarışda Azərbaycanı Nəzrin Qəribova və Seyid Sədrəddinov təmsil edib.

# Kərə yağları...

## Nələrə diqqət etməliyik?

Gündəlik qida rasionumuzda yağ mühüm elementlərdən biridir. Məlumdur ki, sağlamlıq həm də yediyimiz qidadan çox asılıdır. Son zamanlar tüğyan edən xəstəliklər yeyib-içdiyimizə diqqət yetirməyin vacib olduğunu göstərir.

Mütəxəssislərin fikrincə, hər bir insan gün ərzində ən azı 100 qram yağ qəbul etməlidir. Üstəlik, qəbul etdiyimiz yağın tərkibinin keyfiyyətli olması da orqanizm üçün çox vacibdir. Çünki orqanizmin tələb etdiyi vitamin və maddələrin bir qismi yağdan alınır. Ancaq keyfiyyətsiz və tərkibi zərərli maddələrlə zəngin yağlar orqanizmdə bir sıra problemlərin yaranmasına səbəb olur.

### Satışda saxta və keyfiyyətsiz kərə yağları var

Azad İstehlakçılar İctimai Birliyinin sədri (AİİB) Eyyub Hüseynovun “Yeni Azərbaycan”a açıqlamasına görə, hər ay kərə yağlarındakı problemlərlə bağlı birliyə 4-5 istehlakçı zəngi gəlir: “Nehrə, kərə yağlarının əksəriyyətinin tərkibinə marqarin qatılır. Onu nehrədən keçirirlər, imitasiya olunur, guya təbii nehrə yağıdır. Bunların əksəriyyəti vaxtı keçmiş, təhlükəli bitki yağlarının qarışığıdır. Həmçinin marketlərdə hamının üstündəki inək şəklinə baxıb aldandığı yağlar da imitasiya olunur. Onlar da əslində qarışıq yağlar olur”.

### Hansı yağ daha bərkdirsə...

E.Hüseynov bildirib ki, qidaların əksəriyyətinin üstündə aldadıcı informasiyalar var: “Yaxşı olar ki, kərə yağı alan zaman onu əldə bərk sıxsınlar. Hansı yağ daha bərkdirsə, o təbii kərə yağıdır. Mən bir neçə il əvvəl Yeni Zellandiyada Azərbaycana göndərilən kərə yağının istehsal zavoduna getdim və orda ölkəmiz üçün hazırlanan yağa baxdım. Hətta orda süd istehsalı və fermer təsərrüfatına da getmişdim. Orda heyvanlar açıq səma altında otlayırlar, yemlərlə yemləndirilmirlər”.

### Yeməklərimizdə hansı yağlardan istifadə etməliyik?

Sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib ki, yağ orqanizmə enerji verən, eyni zamanda da çox faydalı olan makroelementlərdən hesab olunur. Mütəxəssis qeyd edir ki, bitki və heyvan mənşəli yağlardan istifadə etmək lazımdır: “Xüsusilə tərkibində doymamış yağ turşuları olan yağlardan istifadə etmək yay aylarında daha çox faydalıdır. Buna da zeytun yağını nümunə göstərmək olar, çünki zeytun yağı soyuq sıxım olan, təbii, keyfiyyətli yağ hesab olunur. Bunu həm yeməklərdə, həm də salatlarda istifadə etmək olar. Daha sonra avokado yağından istifadə etmək də orqanizm üçün faydalıdır. Avokadonı həm tərəvəzlərlə, həm də qızartmalarda da istifadə etmək olar, eyni zamanda da həmin avokadodan az yağ istifadə etməklə, hər hansı bir səhər yeməyi, omlet kimi və yaxud digər səhər yeməyi kimi qəbul olunsa, gün ərzində orqanizmə enerji vermiş olur”.



### Yağ yüksək istilik prosesinə məruz qaldıqda...

Mütəxəssisin sözlərinə görə, heyvan mənşəli yağlardan istifadə etməli olacağıqsa, bu zaman diqqət etməliyik ki, təbii kərə yağı və yaxud nehrə yağı olsun: “Bunlardan istifadə edərkən həddindən artıq çox qızartmamalıyıq, çünki yağ yüksək istilik prosesinə məruz qaldıqda tərkibində konserogen maddələr əmələ gəlir ki, bu da zamanla daxili orqanların və orqanizmin müxtəlif orqanlarını xərçəngə yoluxma riskini artırır. Yaxşı olar ki, yeməkləri hazırladıqda artıq bişməyə az qalmış yağ əlavə etmək həm yağın tərkibinin keyfiyyətli qalmasına, həm də orqanizmə zərər verməməsinə səbəb olur”.

### Ərinmiş yağlar belə saxlanılmalıdır

Mütəxəssis ərinmiş yağdan istifadə zamanı nələrə diqqət etməli olduğumuz barədə də məlumat verib: “Yağ həddindən artıq əridilməməlidir və belə yağları saxlayarkən düzgün temperaturda şüşə və yaxud emal olunmuş qablarda saxlanılmalıdır ki, bu da yağın tərkibinin keyfiyyətli şəkildə qalmasına kömək olur. Yaxşı olar ki, ümumiyyətlə, keyfiyyətsiz yağlardan uzaq duraq, çünki dediyimiz kimi, orqanizmə zərər verir, ilk olaraq mədədə ağrılarla, həzm sistemində ağırlaşmalarla özünü göstərir”.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3684**
**Sifariş: 111**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova